**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**HÜSEYNOV EMİN ZAMİN OĞLU**

# AZƏRBAYCANDA MANATIN REAL MƏZƏNNƏSİNİN DƏYİŞİMİNİN QEYRİ-NEFT SEKTORUNUN SAHƏLƏRİNƏ TƏSİRİ

5302.01 - Ekonometriya

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2014**

Dissertasiya işi Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunda yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad elmləri doktoru, professor
**Həsənli Yadulla Həmdulla oğlu**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, professor
**Balayev Rəsul Ənvər oğlu**

iqtisad elmləri namizədi, dosent
**Kərimov Elsevər Nəriman oğlu**

Aparıcı təşkilat: **AMEA-nın Elmi İnnovasiyalar Mərkəzi**

Dissertasiya işinin müdafiəsi "28" mart, 2014-cü ildə saat 14:00-da Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən FD.02.016 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ1148, Bakı şəhəri, Zahid Xəlilov küçəsi 23, Bakı Dövlət Universiteti

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat "25" fevral, 2014-cü il tarixdə göndərilmşidir.

**FD.02.016 Dissertasiya**
**şurasının elmi katibi:**
**riyaziyyat elmləri doktoru,**
**professor** **N.Q.Əhmədov**

## İŞİN ÜMUMİ XARAKTERİSTİSKASI

**Mövzunun aktuallığı.** Müasir dövrdə açıq iqtisadiyyatlı ölkələrdə məzənnə monetar alət kimi iqtisadi parametrlər üzərində mühüm təsirə malikdir. Bu səbəbdən məzənnənin dəyişimi real sektor göstəricilərinin stabil trayektoriyaya malik olmasında, iqtisadi artım, tədiyə balansı və inflyasiyanın tənzimlənməsində mühüm əhəmiyyət kəsb edir.

Kiçik açıq iqtisadiyyatlı və resursla zəngin ölkələrdə bu əhəmiyyətlilik daha da artmaqdadır. Belə ki, neft gəlirlərindən intensiv istifadə zamanı dövlət xərclərindəki artım şokları nəticəsində real çoxtərəfli məzənnənin tarazlı həddən kənarlaşması qeyri-xətti trayektoriyaya malik olur.

Real çoxtərəfli məzənnənin artması ölkənin yerli məhsullarının rəqabət qabiliyyətinin aşağı düşdüyünü göstərir. Qeyd edək ki, real çoxtərəfli məzənnənin bahalaşması ölkədə və xarici ticarət tərəfdaşlarında inflyasiya fərqindən də irəli gələ bilər. Belə ki, Azərbaycanda olan inflyasiyanın tərəfdaş ölkələrdəki səviyyəsindən çox olması iqtisadiyyatın rəqabət qabiliyyətinin zəifləməsini göstərir.

Məzənnənin dəyişməsinin qiymət səviyyəsi və real sektor sahələrində yaratdığı risk daha çox məzənnə ucuzlaşmasının idxal qiymətlərinə və son nəticədə isə istehlakçı qiymətlərinə ötürücülüyünün həcmindən asılıdır. Bu transmissiya həm makro, həm də mikro səviyyəli xarakterə malikdir. Ölkədə həyata keçirilən pul siyasəti həm qiymətlər səviyyəsi, həm də məzənnəyə təsir etdiyindən, bu göstəricilər qarşılıqlı surətdə nəzərdən keçirilməlidir. Belə ki, monetar siyasətin təkmilləşdirilməsi məzənnə ötürücülüyünün kəskin azalmasına təsir edən ən mühüm amillərdən hesab olunur.

Ümumilikdə məzənnənin dəyişiminin rəqabət qabiliyyətinə təsirinin tədqiq olunması bir çox səbəblərdən vacib hesab olunur. Əvvəla, məzənnə ötürücülüyünün müəyyən olunması pul siyasətinin həyata keçirilməsində, xüsusilə inflyasiyanın proqnozlaşdırılması üçün mühüm rola malikdir. Digər tərəfdən isə məzənnə ötürücülüyünün tədqiq olunması istər makro, istərsə də mikro səviyyədə ölkədə mövcüd olan müəssisələrin və ümumilikdə ölkənin xarici ticarətdən nə dərəcədə təsirləndiyini müəyyən etməyə imkan verir.

Eyni zamanda real məzənnənin dəyişiminin rəqabət qabiliyyətinə təsirinin aktuallığını daxili və xarici faktorlar da şərtləndirir. Xarici faktorlara daxili və xarici bazarlarda milli məhsulların rəqabət qabiliyyətini qorumaqla ölkənin xarici mühitə inteqrasiyasının sürətləndirilməsini aid etmək olar.

Xarici şirkətlərin daxili bazara artan ekspansiyası şəraitində real məzənnənin möhkəmlənməsi daxili faktor kimi yerli məhsulların rəqabət qabiliyyətini azaldır. Bütövlükdə Azərbaycanda məzənnənin real sektorun aqreqat göstəricilərinə (ÜDM, inflyasiya, məşğulluq səviyyəsi, idxal, ixrac və s.) təsirinin araşdırılmasına həsr olunmuş bir sıra tədqiqat işləri həyata keçirilmişdir. Bu sahədə aparılan tədqiqatların əhəmiyyətini qeyd etməklə yanaşı göstərmək lazımdır ki, respublikada bütövlükdə iqtisadiyyatın müxtəlif inkişaf xüsusiyyətinə malik olması şəraitində manatın real məzənnəsinin dəyişiminin qeyri-neft sektorunun sahələrinə təsirinin tətbiqi məsələlərinə həsr olunmuş müstəqil tədqiqat işi yerinə yetirilməmiş, bu problemin nəzəri-metodoloji və praktiki məsələləri kompleks tədqiq edilməmişdir. Digər tərəfdən məzənnənin aqreqat təsir obyektinin seçilməsi bəzən dürüst nəticələrin əldə olunmasını çətinləşdirmişdir. Belə ki, məzənnə bütün sektorlara eyni istiqamətdə və bərabər səviyyədə təsir göstərmir. Həmçinin bu təsirin transmissiya kanalı və müddəti bütün sektorlar üçün eyni deyil.

Başqa sözlə, aqreqat göstəricilərin ayrı-ayrı komponentləri bir çox hallarda məzənnədən fərqli təsirlənmə xüsusiyyətlərinə malik olur. Bu isə transmissiyanın ümumiləşmiş göstəricilərdə birmənalı olaraq öz əksini tapmasında metodoloji problemlər yaradır.

Bütün bunlar: (i) manatın məzənnəsinin determinantlarının müəyyən edilməsini, (ii) real məzənnənin transmissiya effektlərinin, həmçinin xarici ticarət şəraitinə təsirinin qiymətləndirilməsini və (iii) iqtisadiyyatın diversifikasiyasına xidmət edən səmərəli məzənnə səviyyəsinin müəyyən edilməsini zəruri etmişdir.

**Dissertasiya işinin məqsədi.** İqtisadi qloballaşmanı, neft gəlirlərinin makroiqtisadi effektləri və iqtisadiyyatın tsiklik vəziyyətini nəzərə almaq və makroiqtisadi sabitliyi təmin etməklə manatın real məzənnəsinin qeyri-neft sektorunun rəqabət qabiliyyətinə müsbət təsirinin artırılması və diversifikasiyasını dəstəkləyən səmərəli məzənnə siyasətinin müəyyən olunması istiqamətində elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyyələr hazırlamaqdan ibarətdir.

Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

– Real valyuta məzənnəsinin formalaşması və onun qeyri-neft sektorunun ticari və qeyri-ticari sektorlarına təsirinin konseptual əhəmiyyətinin əsaslandırılması;

– Müasir makroiqtisadi sabitləşmə proqramlarının reallaşmasında

məzənnənin rolunun müəyyənləşdirilməsi;

– Manatın məzənnəsinin transmissiya effektlərinin qiymətləndirilməsi;

– Real valyuta məzənnəsinin bazar qiymətlərinə təsirinin simmetrik və assimetrikliyinin müəyyən edilməsi;

– Xarici ticarət şəraitində manatın məzənnəsi və qiymətlərin elastikliyi arasındakı əlaqənin tədqiqi;

– Məzənnənin səmərəli səviyyəsinin formalaşmasında institusional və struktur çərçivənin təkmilləşdirilməsi istiqamətlərinin işlənib hazırlanması;

– Qeyri-neft sektorunun diversifikasiyasının dəstəklənməsi istiqamətində səmərəli məzənnə siyasətinin müəyyən olunması istiqamətində təklif və tövsiyələrin hazırlanması.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti kimi manatın real məzənnəsinin dəyişiminin qeyri-neft sektorunun sahələrinə təsiri seçilmişdir. Monetar sferada effektiv idarəetmənin təşkili məqsədilə səmərəli məzənnə siyasətinin işlənib hazırlanması, həmçinin qeyri-neft sektorunun rəqabət qabiliyyətinin artırılması istiqamətində siyasət variantlarının işlənməsi məsələləri tədqiqatın predmetini təşkil edir.

**Tədqiqatın nəzəri-metodoloji əsası**nı problemlə bağlı nəzəriyyələr, xarici və ölkə alimlərinin tədqiqatları, qlobal və lokal miqyasda maliyyə münasibətlərinin inkişaf təcrübəsi, eləcə də məzənnə siyasətinin taktiki və strateji istiqamətləri təşkil edir.

Dissertasiya işinin metodoloji əsasını ümumi elmi və xüsusi iqtisadi metodların geniş spektri təşkil edir ki, bunlar da tədqiqatın konkret vəzifələrinə müvafiq olaraq tətbiq edilmişdir. Tədqiqat işində məntiqi və tarixi, ekonometrik, sistemli-struktur yanaşma, kompleks və faktorlu təhlil metodlarından istifadə olunmuşdur.

**Tədqiqatın informasiya bazası**nı beynəlxalq maliyyə-kredit institutlarının rəsmi hesabatları, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin, Mərkəzi Bankın, İqtisadi İnkişaf Nazirliyinin, Dövlət Statistika Komitəsinin hesabatları, normativ sənədləri və Azərbaycan Respublikasının müvafiq normativ hüquqi aktları və eləcə də digər təşkilatların məlumatları təşkil edir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işinin elmi yeniliyi müasir dövrdə Azərbaycanda manatın real məzənnəsinin dəyişiminin qeyri-neft sektorunun rəqabət qabiliyyətinə təsirinin araşdırılmasından, real valyuta məzənnəsinin ticarət şəraitinə təsirinin qiymətləndirilməsindən və eləcə də

iqtisadiyyatın diversifikasiyasına xidmət edən səmərəli məzənnə siyasətinin müəyyən edilməsindən, səmərəli məzənnə səviyyəsinin formalaşmasını dəstəkləyən institusional və struktur çərçivənin elmi cəhətdən əsaslandırılmasından, bu istiqamətdə konkret təkliflərin hazırlanmasından ibarətdir.

Dissertasiya işinin elmi yeniliyini müəyyənləşdirən mühüm cəhətlər aşağıdakılardan ibarətdir:

– Valyuta məzənnəsinin formalaşması determinantlarının elmi-nəzəri əsasları və bu sahədə dünya təcrübəsi ilə bağlı müvafiq elmi sistemləşdirmələr aparılmış, mövcud vəziyyət makroiqtisadi aspektdən qiymətləndirilmiş, real məzənnənin qeyri-neft sektorunun rəqabət qabiliyyətinə təsirinin nəzəri-praktiki cəhətləri müəyyənləşdirilmişdir;

– Məzənnənin beynəlxalq təcrübədə məlum olan transmissiya kanalları araşdırılmış və onun əsasında Azərbaycanda məzənnənin kəmiyyət və keyfiyyət təsirləri müəyyən edilmişdir;

– Azərbaycanda real valyuta məzənnəsinin bazar qiymətlərinə təsirinin simmetrik və assimmetrikliyi qiymətləndirilmişdir;

– Xarici ticarət şəraitində manatın məzənnəsi və qiymətlərin elastikliyi vəziyyəti müəyyənləşdirilmişdir;

– Manatın real məzənnəsinin qeyri-neft sektorunun rəqabət qabiliyyətinə təsirinin artırılması istiqamətləri işlənmişdir. Real məzənnənin dəyişiminin rəqabət qabiliyyətinin makroiqtisadi göstəricilərlə funksional asılılıq modeli qurulmuş və konkret təkliflər irəli sürülmüşdür;

– Səmərəli məzənnənin formalaşmasına xidmət edən institusional və struktur çərçivə işlənib hazırlanmış və bu çərçivədə müvafiq proqnoz modelləri qurulmuşdur;

– Azərbaycanda qeyri-neft sektorunun diversifikasiyasını dəstəkləyən səmərəli məzənnə siyasətinin zərurəti və onun makroiqtisadi aspektdən potensial pozitiv təsirləri əsaslandırılmış, bu sahədə müvafiq siyasət istiqamətləri tövsiyə edilmişdir.

**Tədqiqat işinin praktiki əhəmiyyəti.** Dissertasiyada irəli sürülmüş nəzəri müddəalar və praktiki tövsiyələr real məzənnənin dəyişiminin rəqabət qabiliyyətinə təsiriinin müəyyənləşdirilməsi, transmissiya kanallarının müəyyən olunmasında, səmərəli məzənnə siyasətinin formalaşdırılması üçün institusional və struktur mexanizmin gücləndirilməsi, siyasət qərarlarının hazırlanması, habelə elmi tədqiqatlarda və tədris prosesində istifadə oluna bilər.

Tədqiqat işində təqdim edilmiş metodoloji yanaşmalar, habelə apa-

rılmış qiymətləndirmələr və əldə olunmuş nəticələr məzənnənin determinantlarının və transmissiyasının müəyyən olunmasında, məzənnənin səmərəli həddinin qiymətləndirilməsində, o cümlədən məzənnənin təsiri və proqnozlaşdırılması üzrə yeni modellərin əsaslandırılması kimi təkliflər "Pul siyasəti"nin təkmilləşməsində və "Məzənnə siyasəti"nin hazırlanmasında istifadə oluna bilər.

**Tədqiqat işinin aprobasiyası və nəticələrin tətbiqi.** Dissertasiya işinin elmi nəticələri beynəlxalq və yerli elmi-praktiki konfrans və seminarlarda elmi məruzələrlə təqdim olunmuş, müzakirə edilmiş və müsbət qiymətləndirilmişdir, eləcə də elmi-praktik jurnal və konfrans toplularında çap olunmuş 8 elmi əsərdə öz əksini tapmışdır.

**Dissertasiya işinin həcmi və strukturu.** Dissertasiya giriş, 3 fəsil, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısı və əlavədən ibarət olmaqla 162 səhifə həcmindədir. İşdə 26 cədvəl və 30 şəkil verilmişdir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **"Valyuta məzənnəsinin dəyişiminin nəzəri-metodoloji əsasları"** adlanan birinci fəslində valyuta məzənnəsinin formalaşmasının determinantları, real valyuta məzənnəsinin ticari və qeyri-ticari sektorlara təsirinin konseptual əsasları, ixrac, idxal və daxili məhsullar üzrə real valyuta məzənnəsinin formalaşması məsələləri tədqiq edilmişdir.

Məzənnə ötürücülüyü məzənnənin dəyişməsi nəticəsində ticari məhsulların qiymətlərinin hansı həcmdə dəyişdiyini əks etdirir. Aparılan nəzəri araşdırmalar göstərir ki, təsbit məzənnə rejimində valyuta məzənnəsi valyuta müdaxiləsi və kapitala nəzarətdən, üzən məzənnə rejimində isə uzun, orta və qısamüddətli dövrlərdə müxtəlif faktorlarlardan təsirlənir.

Məzənnənin dəyişimini müəyyən edən modellər sistemləşdirilmiş və real məzənnənin müəyyənləşməsində ticarət sektorundakı məhsuldarlıq və ticarət indeksinin rolu müəyyən edilmişdir.




Sxem 1. Məzənnə üzrə transmissiya.

Alıcılıq qabiliyyəti pariteti (AQP) prinsipinə əsasən ölkə daxilində qiymət xarici qiymətlərdən məzənnə ilə fərqlənir:

$$P_t = E_t * \overline{P}_t \quad (1)$$

burada, $P_t$- ölkə daxilindəki qiymət; $E_t$-məzənnə; $\overline{P}_t$-ticarət tərəfdaşları olan ölkələrdə qiyməti gıstərir. Beləliklə, məzənnədə istənilən dəyişiklik birbaşa olaraq daxili qiytmətlərdə əks olunmalıdır. Lakin, əksər tədqiqat işlərində AQP-nin özünü doğrultmadığı qeyd edilir.

Daha sonra ötürücülük əlaqəsinin hər bir ölkə üçün spesifik xarakter daşımasını nəzərə alaraq bir neçə spesifik xüsusiyyətlər sistemləşdirilmişdir. Məzənnə ötürücülüyü üzrə metodologiyalar iki ümumi qrupda ümumiləşdirilmişdir:

1) tək bərabərlikdən ibarət modellər. Əksər tədqiqatlarda uzunmüddətli əlaqə aşağıda göstərilmiş model əsasında qiymətləndirilir:

$$P_t = \alpha + \beta X_t + \delta E_t + \xi Z_t + e_t \quad (2)$$

Burada: $P_t$- qiymət indeksi (idxal, istehsalçı, istehlakçı qiymətləri və s.); $X_t$- xarici ölkə iqtisadiyyatını xarakterizə edən dəyişən (xarici ölkənin istehsalçı qiymət indeksi); $E_t$- nominal məzənnə; $Z_t$ - tələb və ya təklif kimi çıxış edə biləcək dəyişənlər bloku. Bu modellərdə əsas hədəf $\delta$ (delta) hesab olunur və məzənnə dəyişməsinin qiymətə ötürücülük səviyyəsini göstərir. Belə ki, milli valyutanın ucuzlaşması ($E_t$) nəticəsində ölkə daxilində qiymətlər ($P_t$) yüksəlməlidir.

2) çox saylı tənliklər sistemindən ibarət modellər. Bu tip modellər göstəricilər arasında qarşılıqlı əlaqənin ehtimal edildiyi halda tətbiq olunur və VAR (Vektor Avto Reqresiya) modellərinə üstünlük verilir. Cari tədqiqat işində istifadə olunmuş VAR modeli aşağıdakı kimi qurulmuşdur:

$$\Delta NEM_t = \sum_{i=1}^{n} \alpha_{1i} \Delta NEM_{t-i} + \sum_{i=1}^{n} \mu_{1i} \Delta M1_{t-i} + \sum_{i=1}^{n} \beta_{1i} \Delta IQI_{t-i} + \pounds_1 \Delta IQI_t^x + \Phi_1 D + \varepsilon_1$$

$$\Delta M1_t = \sum_{i=1}^{n} \alpha_{2i} \Delta NEM_{t-i} + \sum_{i=1}^{n} \mu_{2i} \Delta M1_{t-i} + \sum_{i=1}^{n} \beta_{2i} \Delta IQI_{t-i} + \pounds_2 \Delta IQI_t^x + \Phi_2 D + \varepsilon_2$$

$$\Delta IQI_t = \sum_{i=1}^{n} \alpha_{3i} \Delta NEM_{t-i} + \sum_{i=1}^{n} \mu_{3i} \Delta M1_{t-i} + \sum_{i=1}^{n} \beta_{3i} \Delta IQI_{t-i} + \pounds_3 \Delta IQI_t^x + \Phi_3 D + \varepsilon_3$$

Burada:NEM - nominal effektiv məzənnə; M1 - Pul aqreqatı; İQİ- istehlakçı qiytmətləri indeksi; $İQİ^x$ - xarici ölkə qiymət indeksi; D - fiktiv dəyişənlər toplusu (dummy variables); $\varepsilon$- şoklar (təsadüfü hədd).

Əldə olunmuş "impuls cavab" funksiyası vasitəsi ilə məzənnə ötürücülüyü aşağıdakı kimi hesablanılır.

$$MÖ_{t,t+j} = \frac{\sum_{j=1}^{T} \Delta IQI_{t,t+j}}{\sum_{j=1}^{T} \Delta NEM_{t,t+j}} \quad (3)$$

Burada: MÖ - məzənnə ötürücülüyü, $\sum_{j=1}^{T} \Delta IQI_{t,t+j}$ - şok baş verdikdən j ay müddətində qiymətdə baş verən cəmlənmiş dəyişmə, $\sum_{j=1}^{T} \Delta NEM_{t,t+j}$ - eyni dövr üzrə cəmlənmiş məzənnə dəyişməsi. Eyni zamanda məzənnənin təsiri aspektindən iqtisadi sektorların funksional təsnifat matrisi qurulmuşdur.




Sxem 2. Məzənnənin iqtisadi sahələrə təsiri kanalları.

Tədqiqatın **"Azərbaycanda real valyuta məzənnəsinin ticarət şəraitinə təsirinin mövcud vəziyyəti"** adlı ikinci fəslində manatın məzənnəsinin transmissiya effektləri, real valyuta məzənnəsinin bazar qiymətlərinə təsirinin (simmetrik və assimetrik) qiymətləndirilməsi və xarici ticarət şəraitində manatın məzənnəsi və qiymətlərin elastikliyi problemi araşdırılmışdır.

Məzənnə qısamüddətdə bilavasitə idxal qiymətlərinə və maliyyə aktivlərinin nisbi gəlirliyinə, bunun vasitəsilə isə inflyasiyaya və maliyyə bazarlarının vəziyyətinə təsir göstərir. Azərbaycan iqtisadiyyatında məzənnə amili xarici ticarət rejiminin liberallaşdığı dövrdən etibarən ən aktual iqtisadi kateqoriyaya çevrilmişdir.

İdxal qiymətləri indeksinin formalaşmasında ticarət tərəfdaşı olan ölkələrin valyutasına qarşı məzənnə mühüm rol oynayır. Bu baxımdan məzənnə kanalı üzrə göstərici kimi idxal çəkili nominal effektiv məzənnə indeksindən (NEM) istifadə oluna bilər.




Sxem 3. Məzənnə ötürücülüyü

Aparılmış tədqiqat işində qiymətlər səviyyəsinin müxtəlif iqtisadi göstəricilərdən təsirləndiyi güman edilir. Belə ki, modeldə 2000-ci ildən başlayaraq illər üzrə rüblük əsasda aşağıdakı göstəricilər istifadə olunmuşdur: 1) İdxal çəkili qeyri-neft nominal effektiv məzənnə (NEM), 2) M1 pul aqreqatı (M1), 3) İstehlak qiymətlərinin indeksi (İQİ), 4) İdxal çəkili xarici qiymətlər indeksi (İQİx). Daha sonra modeldə ilkin dəyişənlər arasında uzunmüddətli əlaqə yoxlanılmış və məzənnə və qiymət arasında uzunmüddətli əlaqənin mövcüd olmaması müəyyən edilmişdir.

$$Log(İQİ) = 2.535 + 0.044 log(NEM) + 0.214 log(M1) + 0.136 log(İQİx)$$
$$p = \quad 0.4996 \quad 0.0000 \quad 0.0866$$

Uzunmüddətli əlaqənin olmamasının əsas səbəblərindən biri kimi 2004-cü ildən başlayaraq İQİ-də struktur dəyişməsinin baş verməsidir. 2001-2004-cü illər ərzində modelin qalıqlarında aşağı meyillilik, 2004-cü ildən başlayaraq isə volatillik nəzərə çarpır. Ilkin ekonometrik qiymətləndirmələrin nəticələrini üstün tutaraq, ötürücülüyün qiymətləndirilməsində VAR modelindən istifadə olunmuşdur.

Bu transmissiya kanalına əsasən sol tərəfdə yerləşən dəyişən (NEM) daha ekzogen, sağ tərəf (İQİ) isə endogen dəyişən hesab olunur. Dəyişənlərin bu ardıcıllıqla düzülməsində məqsəd məzənnədə baş verən şokun ötürülməsini qeyd olunan ardıcıllıqla nəzərə almaqdan ibarətdir: NEM-də baş verən dəyişmə M1 pul aqreqatına və nəticədə ümumi təsir İQİ-ə ötürülür. Dəyişənlər arasında qarşılıqlı əlaqəni tədqiq etmək məqsədi ilə “impuls-cavab” funksiyasından istifadə olunaraq bu funksiya əsasında məzənnənin qiymət ötürücülüyü hesablanmışdır.

“İmpuls-cavab” funksiyası vasitəsilə əldə olunmuş nəticələrə əsasən NEM-də baş verən müsbət şok (manat məzənnəsinin güclənməsi) qiymət səviyyəsini azaldır. Bu təsir 2-ci rübün yarısından başlayaraq statistik əhəmiyyətə malik olur və 3-cü rübdə maksimum həddinə çatır. Ümumilikdə, şok effekti öz əhəmiyyətliyini 4-cü rübdən başlayaraq itirir.

Alınmış nəticələrə əsasən Azərbaycan iqtisadiyyatında məzənnə dəyişməsinin qiymət indeksinə ötürücülüyü yüksəkdir.

Cədvəl 1

Məzənnə dəyişminin qiymət indeksinə ötürücülüyü

| Dövr | ΔNEM | ΔİQİ | Ötürücülük (İQİ/NEM) |
|---|---|---|---|
| 1 | -0.0042 | 0.014 | -3.3503 |
| 2 | -0.016* | 0.0151* | -0.9182 |
| 3 | 0.0177* | 0.015* | -0.8466 |
| 4 | -0.018* | 0.0107* | -0.5965 |
| 5 | -0.0207 | 0.0086* | -0.4132 |
| 6 | -0.0226 | 0.0112* | -0.4965 |
| 7 | -0.0236 | 0.0127 | -0.5401 |
| 8 | -0.0227 | 0.012 | -0.5251 |
| 9 | -0.0217 | 0.0108 | -0.4959 |
| 10 | -0.0227 | 0.0108 | -0.4745 |

“*” işarəsi statistk əhəmiyyətliliyi göstərir.

Məzənnə ötürücülüyü ən maksimum səviyyəsinə ikinci rübdə çatır (91%). Daha sonra NEM-in inflyasiyanın tənzimlənməsində böyük əhəmiyyətə malik olduğu təsdiqlənmişdir.

Variasiya paylanmasına əsasən, ilk dövrlərdə qiymət indeksinin özü, sonradan isə digər faktorlar İQİ-nin volatilliyinin izah olunmasında əsas rola malikdirlər. Bu dəyişənlərin payları 4-cü rübdən başlayaraq stabilləşir. Belə ki, İQİ-in 26%-i NEM, 41%-i M1, 33%-i isə İQİ-nin özü tərəfindən izah olunur.




Qrafik 1. Faktiki və hesablanmış REM

Tədqiqat çərçivəsində REM-in rəqabət qabiliyyətinə təsirini müəyyən etmək üçün REM alternativ üsulla hesablanmış və bu, bəzi ziddiyyətli məqamları qismən aydınlaşdırmağa imkan vermişdir.

Hesablamalar rəqabət qabiliyyətinin nəzərdə tutulduğundan daha az pisləşdiyini, iqtisadi bum dövründə isə nisbi sabit qaldığını göstərmişdir. Belə ki, 2004-2009-cu illərdə ənənəvi REM-lə müqayisədə ixracyönümlü sektor üzrə hesablanmış REM 26 faiz bəndi, idxalla rəqabət aparan sektor üzrə REM isə 21 faiz bəndi daha az ucuzlaşmışdır.

İdxalla rəqabət aparan sektorun rəqabət qabiliyyəti bum dövründə daha stabil dinamikaya malik olmuşdur. Bunun başlıca səbəbi dünya ərzaq məhsulları bazarlarında davamlı bahalaşma meylinin olmasıdır. Bu bahalaşma manatın möhkəmlənməsini kompensasiya etmiş və nəticədə rəqabət qabiliyyəti sabit qalmışdır. 2009-cu ildə isə əksinə, dünya ərzaq bazarında kəskin ucuzlaşma və tərəfdaş ölkələrdə devalvasiya tədbirləri üst-üstə düşmüş, nəticədə REM kəskin bahalaşmışdır.

Sahəvi REM-in trendinin formalaşmasında daxili və xarici bazarlarda qiymət nisbəti əhəmiyyətli rol oynasa da, dispersiyanın dekompozi-

siyası göstərmişdir ki, sahəvi REM-in dinamikasında volatilliyin başlıca mənbəyi nominal effektiv məzənnədir. Digər bir mühüm məqam ondan ibarətdir ki, NEM-in yaratdığı volatillik effekti ənənəvi REM-lə müqayisədə sahəvi REM-də daha böyükdür. Alternativ REM-in ənənəvi REM-lə müqayisədə daha az bahalaşması təhrifedici maddələrin böyük əhəmiyyətə malik olduğunu təsdiqləyir.

Daha sonra REM-in rəqbət qabiliyyyətinə təsiri modeli qurulmuş və bu zaman panel statistik bazadan istifadə olunmuşdur. Baxılan dövrdə 15 əsas ticarət tərəfdaşı üzrə idxal-ixrac, iqtisadi artım, məzənnə və s. məlumatları özündə cəmləşdirmişdir. Asılı dəyişən kimi modelə ayrı-ayrı tərəfdaş ölkələri ilə idxal və ixracın həcmi götürülmüşdür. Hər bir dəyişən həmin sektor üzrə mövcud qiymət indeksi vasitəsi ilə real ifadəyə gətirilmişdir.

Müəyyən olunmuşdur ki, idxalla rəqabət aparan sektorda məzənnənin 1% möhkəmlənməsi idxalın həcmini 1,5% artırır. İdxalın artması sıxışdırma effekti nəticəsində yerli istehsalın həcmini 0,6% daraldır. Bu isə öz növbəsində uzun müddətli dövrdə 3600 iş yerinin itirilməsi ilə nəticələnir.

İxracyönümlü sektorda isə məzənnənin təsiri statistik əhəmiyyətsiz olmuşdur. Bunun mümkün səbəblərindən biri bu sektorun getdikcə daha çox gətirilmə xammala əsaslanmasıdır. Başqa sözlə, bu sektor məzənnənin neqativ təsirlərini xarici xammala yönəlməklə aradan qaldırır.

Tədqiqat işində asimmetriklik və qeyri-xəttiliyin tədqiqi göstərdi ki, bu tip məsələlər bir sıra faktorlardan yarana bilər. Qiymətlərin azaldığı və kəmiyyətin artdığı dövrdə asimmetrik yanaşma rasional ola bilər.

Azərbaycan şəraitində dollar-manat məzənnəsi və avro-manat üzrə məzənnə ötürücülüyündə assimetriklik də təcrübə nəzərə alınaraq qiymətləndirilmişdir. Alınan nəticəyə görə Məzənnənin bahalaşması və ucuzlaşmasından asılı olmayaraq onun heç bir əhəmiyyəti müəyyən edilmir.

Cədvəl 2

Asimmetrik məzənnə transmissiyasının yoxlanılması: model üzrə nəticələr

| **Asılı dəyişən: İnflyasiya (CPİ)** | **Məzənnənin bahalaşması** | **Məzənnənin ucuzlaşması** |
|---|---|---|
| **EXR_US** | -0.408323 | -0.407035 |
| **EXR_EUR** | -0.358857 | -0.359197 |

Belə ki, sabit dəyişən böyük və əhəmiyyətli alınsa da, inflyasiya məzənnə ilə deyil, əsasən başqa amillərlə izah edilir. Həmçinin baxılan dövrdə inflyasiyanın əhəmiyyətli inersiyaya malik olması müəyyən edilmişdir.

Manat-dollar və manat-avro üzrə məzənnə şokunun hər iki məzənnə kanalının homogen olduğunu, yəni eyni qaydalarla idarə edildiyini göstərir. Aparılmış hesablamalara görə, alınmış əmsallar 1% səviyyəsində əhəmiyyətli hesab olunurlar.

İlkin mərhələdə, uzunmüddətli tənliklərin hər birində vahid kökün olduğunu yoxlamaq üçün vahid köklərin testi aparılmışdır. Vahid köklərin testinin nəticələrinə əsasən, hər iki tələb tənliyində ən azı iki I(1) dəyişəni vardır. Buna görə də, bu qiymətləndirməyə Johansen yanaşması müvafiq hesab edilə bilər.

Modeldə hər bir dəyişən üçün Genişləndirilmiş Dickey Fuller, Fillips-Perron, və KPSS vahid kök testləri aparılır. Gecikmələri müəyyən etmək üçün Akaike Info Kriteriyası seçilir. Testin nəticələri aşağıdakı cədvəl 4-də verilmişdir:

Cədvəl 3

Model üzrə testin nəticələri

| Dəyişən\|Test | Genişləndirilmiş DF (P-dəyərləri) | Fillips-Perron (P-dəyərləri) | KPSS (LM-Statistikası) | Nəticə |
|---|---|---|---|---|
| lnX | Level: 0.0884<br>First Dif.: 0.0001 | Level: 0.0696<br>First Dif.: 0.000 | Level: 0.4889<br>First Dif.: 0.1410 | I(1) |
| lnIM | Level: 0.1290<br>First Dif.: 0.0000 | Level: 0.2150<br>First Dif.: 0.000 | Level: 0.5488<br>First Dif.: 0.1557 | I(1) |
| RFX | Level: 0.000<br>First Dif.: 0.0000 | Level: 0.000<br>First Dif.: 0.000 | Level: 0.1006<br>First Dif.: 0.0308 | I(0) |
| $lnY_{az}$ | Level: 0.4359<br>First Dif.: 0.0000 | Level: 0.0001<br>First Dif.: 0.000 | Level: 0.1623<br>First Dif.: 0.0799 | I(1) |
| $lnY_{eur}$ | Level: 0.3161<br>First Dif.: 0.0068 | Level: 0.7513<br>First Dif.: 0.0020 | Level: 0.1936<br>First Dif.: 0.2239 | I(1) |

Hesablanmış tənliklərdə Marşall – Lerner şərti ödənilir və modelin quruluşuna əsasən, manatın ucuzlaşması Azərbaycanın ticarət balansını uzunmüddətli dövrdə yaxşılaşdırmalıdır.

$$\ln(X_t) = 101.57 + 1.465(RFX_t) + 11.467(\ln Y_{eur}) + \varepsilon_t$$
$$\ln(IM_t) = -.610 - 0.113(RFX_t) - 0.09(\ln Y_{az}) + \varepsilon_t$$

Alınan nəticəyə görə, xarici valyutanın 1% ucuzlaşması ticarət balansının 1,352% yaxşılaşmasına səbəb olur. Manatın 2,93% ucuzlaşması isə ticarət balansının 11% pisləşməsinə səbəb olur. 5 aydan sonra isə ticarət balansına həcm kanalı ilə təsir başlayır və 1 ildən sonra ticarət balansı özünün uzunmüddətli tarazlıq nöqtəsinə: 8% profisit mövqeyinə yaxınlaşır.

VXT modelinə görə ilk 4 ayda ticarət qiymətləri və ümumi ticarət balansı azalır, 5-ci aydan sonra isə qiymətlər əvvəlki devalvasiya səviyyələrinə qayıtmır, amma uzunmüddətli tarazlıq mövqelərində, -2% tarazlıq nöqtəsində möhkəmlənirlər. Həcm effektinin dominantlığı şəraitində ticarət balansının səviyyəsi 8%-lik profisitlik nöqtəsinə qədər artmağa başlayır.




Qrafik 2. Ticarət balansı və ticarət qiymətlərinin
real ikitərəfli məzənnənin 2.93% ucuzlaşmasına reaksiyası

Dissertasiyanın “İqtisadiyyatın diversifikasiyasına xidmət edən səmərəli məzənnə səviyyəsinin müəyyən olunması”na həsr edilmiş üçüncü fəslində manatın real məzənnəsinin qeyri-neft sektorunun rəqabət qabiliyyətinə təsirinin artırılması istiqamətləri, manatın məzənnəsinin səmərəli səviyyəsinin formalaşmasında institusional və struktur çərçivənin təkmilləşdirilməsi və qeyri-neft sektorunun diversifikasiyasını dəsətkləyən səmərəli

məzənnə siyasətinin müəyyən olunması məsələləri tədqiq edilmişdir.

Tədqiqat zamanı qeyri-neft sektorunun rəqabət qabiliyyəti məzənnə aspektindən təhlil edilmiş, rəqabət qabiliyyətini göstərən Balassa İndeksi, Xalis İxrac İndeksi və Daxili Resurs Dəyəri Əmsalı hesablanmış və real məzənnənin makro səviyyədə rəqabət qabiliyyətinə təsiri qiymətləndirilmişdir.

Azərbaycanın ticarət dövriyyəsində olan məhsullar üzrə hesablanmış xalis ixrac indeksinə görə müqayisəli üstünlüyü olan 8% (224 adda məhsul) məhsuldan 2% bəndinin (52 adda məhsul) idxalı mövcud deyil və yalnız ixrac olunur. Bununla yanaşı 92% (2545 məhsul növü) müqayisəli üstünlüyü olmayan məhsullardan 45%-i (1242 məhsul növü) yalnız idxal olunur.

Real məzənnənin makro səviyyədə rəqabət qabiliyyətinə təsiri tədqiq edilmişdir. Alınan nəticələrə görə REM-in 1% artımı xarici ticarət balansını 64 dollar artırır ki, bu modelin də uyğunluq mükəmməllik dərəcəsi 82% səviyyəsində qiymətləndirilir.

Qeyd olunanlarla yanaşı məzənnənin tarazlı səviyyəsinin formalaşmasında institusional və struktur çərçivənin təkmilləşdirilməsi üzrə təkliflər verilmişdir.

Siyasət təklifi üçün uzunmüddətli dövrdə REM-in tarazlıq səviyyəsi qiymətləndirilmiş və bu məqsədlə neft və qeyri-neft sektoru üzrə REM-in uzun və qısamüddətli qarşılıqlı əlaqə və proqnoz modeli qurulmuşdur. Vahidə bərabər köklərin testinə görə Azərbaycanda AQP konsepsiyası REM-ə münasibətdə təsirli deyildir. REM və ticarət şərtinin əlaqəsini göstərən elastiklik əmsalı mənfi alınmışdır, bu da ticarət şərtinin yaxşılaşmasının ölkəyə valyuta axınına səbəb olduğunu göstərir. Eyni zamanda müəyyən edilmişdir ki, iqtisadiyyatın açıqlıq səviyyəsinin artması REM-in ucuzlaşmasına səbəb olur.

Qurulmuş tarazlıq modelinə görə Azərbaycan 2005-2012-ci illərdə REM-in möhkəmlənməsi və yüksək inflyasiya ilə seçilən ölkələr qrupuna daxil olmuşdur.

Yüksək inflyasiya qeyri-neft REM-in tarazlı səviyyədən 31,2% kənarlaşmasını şərtləndirmişdir. Lakin faktiki REM tarazlı REM-lə oxşar trayektoriyaya malik olmaqla, həm də onun uzunmüddətli dinamikası əsasən tarazlı trayektoriya ilə müəyyən edilir. Yəni, tarazlı REM-in dinamikasını proqnozlaşdırmaq yolu ilə faktiki REM-in gələcək zaman dinamikasını müəyyən edə bilərik. Daha sonra REM-in proqnoz modeli qurulmuşdur.




Qrafik 3. Tarazlı REM-in proqnozlaşdırılmış dinamikası.

Uzunmüddətli REM-in tərtib olunmuş modeli (neft amilini nəzərə almaqla) onun dinamikasını növbəti üç il üçün müxtəlif ssenarilər əsasında proqnozlaşdırmağa imkan verir.

Məzənnənin real sektorun sahələrinə təsirinə dair tədqiqat işi aşağıdakı nəticələrin əldə olunmasına imkan vermişdir:

– Məzənnənin təsirinin effektivliyinin düzgün qiymətləndirilməsi üçün real sektorun funksional təsnifatı metodologiyası qiymətləndirilmişdir. Bu təsnifat əsasında müəyyən olunmuşdur ki, yerli istehsalın 73%-i, məşğulluğun 56%-i məzənnəyə həssas sektorların payına düşür.

– Qeyri-neft sektoru üzrə daxili istehlakın böyük hissəsi idxal hesabına təmin olunur. Bu pay 2001-08-ci illərdə 60%-dək artsa da, sonrakı illərdə 50%-dən aşağı düşmüşdür.

– Metodoloji yeniliyi-daxili istehlak istehlakçı deyil, istehsalçı prizmasından qiymətləndirilmişdir.

– İxracyönümlü sektor getdikcə daha çox gətirilmə məhsula (aralıq və kapital malları) əsaslanır. Son illərdə məzənnənin möhkəmlənməsi nəticəsində aralıq idxalın ucuzlaşması rəqabətqabiliyyətliyə təsir edən başlıca amillərdən biridir.

– İdxalın 70%-i istehsal təyinatlı aralıq və kapital mallarının payına düşür (revalvasiyanın pozitiv təsir kanalı). Lakin (a) bu pay getdikcə azalır və (b) əsas hissəsi (orta hesabla 75%-i) qeyri-ticari sektora axır və onun dinamikası artan tendensiyaya malikdir.

– Ənənəvi REM ticari sektorda cari rəqabət qabiliyyətinin kəskin itirilməsi haqqında yanlış təəsürat yaradır. Alternativ metodologiya son 5 ildə ticari REM-in cəmisi 26% möhkəmləndiyini göstərir.

– Son 5 ildə iqtisadiyyatın cari rəqabət qabiliyyətinin dinamikasında kəskin volatillik müşahidə olunmuşdur. Volatilliyin başlıca mənbəyi NEM-dir.

– İdxalla rəqabət aparan sektorda real məzənnənin 1% bahalaşması nəticəsində yerli istehsal 0,4% aşağı düşür və 3600 işsizlik yaranır. Qeyd edildiyi kimi aralıq idxalın da 70%-i məhz bu sektora axır. Bunu nəzərə alaraq məzənnənin möhkəmlənməsinin güclü pozitiv təsirləri mümkündür.

Dissertasiya işinin əsas müddəaları, əldə olunan nəticə və təkliflər dərc olunmuş aşağıdakı elmi işlərdə öz əksini tapmışdır:

1. E.Z.Huseynov. “Transmission Mechanism of the Monetary Policy in the Resource-Rich Economies: case of Azerbaijan” / 21-23 september, 2010, The International Conference on “Central Bank Governance Issues”, Czech National Bank, Prague, Czech Republic.
2. E.Z.Hüseynov. Manatın məzənnəsinin inflyasiya ötürücülük qabiliyyətinin qiymətləndirilməsi // AMEA-nın Xəbərləri, İqtisadiyyat seriyası, N 3, 2011, s. 167-174.
3. E.Z.Hüseynov. İqtisadi artımın dinamik tarazlı səviyyəsinin Domar modeli əsasında müəyyən edilməsi // Vergi xəbərləri, N6, 2013, s. 169-179.
4. R.M.Jamilov, E.Z.Huseynov. Channels of Monetary Transmission in the CIS: a Review // Journal of Economic and Social Studies, Vol.3, N1, 2013, p. 5-63.
5. Э.З.Гусейнов. Оценка влияния валютного курса на уровень инфляции // Общество и Экономика, Институт Экономики РАН, 2012, N10, с. 113-123.
6. E.Z.Huseynov. J-Curve and the Marshall-Lerner Condition - The Case of Azerbaijan // The Journal of Economic Sciences: theory and practice, N1, 2012, p. 69-92.
7. E.Z.Hüseynov. Neft gəlirləri şəraitində iqtisadi artımın dinamik tarazlı səviyyəsinin müəyyən edilməsi // İqtisad elmləri: nəzəriyyə və praktika, N2, 2012, s. 57-66.
8. E.Z.Hüseynov. Xarici kapital axınının monetar effektləri və uyğun siyasət istiqamətləri // “Maliyyə və uçot”, N5, 2007, s. 40-47.

**Гусейнов Емин Замин оглы**

# ВЛИЯНИЕ ИЗМЕНЕНИЙ РЕАЛЬНОГО ОБМЕННОГО КУРСА МАНАТА НА НЕНЕФТЯНЫЕ СЕКТОРЫ В АЗЕБАЙДЖАНЕ

## Р Е З Ю М Е

Исследование экономическо-математическими методами важных и актуальных отличий влияния курса национальной валюты на конкурентноспособность экономики небольшой страны с богатыми природными ресурсами и небольшой открытой экономикой.

Исследованием установлена, детерминанта курса маната, определено влияние трансмиссии реального эффективного курса, включая проведение оценки влияния симметричности курса и внешнеторговых условий. Произведено теориотическо – методологическое исследование вопросов, связанных с установлением оптимального уровня курса способствующего диверсификации экономики, разработан отраслевой показатель эффективного реального курса, характеризующий макроэкономическую конкурентноспособность, и определено влияние этого показателя на конкуренцию экономики Азербайджана.

Кроме этого, установлено, что при соблюдении в экономике Азербайджана условий Маршалла – Лернера экспорт не нефтяного сектора соответствует траектории кривой “J”.

В конце исследования даны предложения по институциональному и структурному совершенствованию формирования равновесного уровня валютного курса.

**Huseynov Emin Zamin oglu**

## IMPACT OF CHANGES IN REAL EXCHANGE RATE OF MANAT ON NON-OIL SECTORS IN AZERBAIJAN

### RESUME

Given the importance and relevance of econometric study of exchange rate impact on competitiveness of small and resource-rich economies, the current research explores theoretical-methodological issues pertaining to identification of determinants of the exchange rate of manat, estimating transmission effects of the real effective exchange rate (REER), including the symmetry of transmission and its impact on terms of trade, and a sectoral REER indicator was developed with its impact on competitiveness of the economy of Azerbaijan calculated.

In addition, it was found out that a Marshall-Lerner condition is satisfied for the economy of Azerbaijan and that non-oil exports follow the «J» curve.

In conclusion, a number of proposals were put forward with regard to improving institutional and structural framework under which an equilibrium exchange rate is formed.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

***На правах рукописи***

**ГУСЕЙНОВ ЕМИН ЗАМИН ОГЛЫ**

# ВЛИЯНИЕ ИЗМЕНЕНИЙ РЕАЛЬНОГО КУРСА МАНАТА НА НЕ-НЕФТЯНЫЕ СЕКТОРЫ В АЗЕБАЙДЖАНЕ

Специальность: 5302.01 – Эконометрия

## А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание ученой степени
доктора философии по экономике

**БАКУ – 2014**